# Tarixin ən zəngin 10 insanı...

## Musanın sərvətini eşidənlər şok olur







Jakob Fugger (221 milyard dollar)



Birinci Viliam (209-229 milyard dollar)



Muammer Kaddafi (200 milyard dollar)



Cornelius Vanderbilt (185 milyard dollar)

*Bu gün ən zəngin insanlar belə tarixin ən zənginləri arasında yer almır. Zəngin insanların sahib olduqları pul inanılmaz dərəcədə böyükdür. Tarixin gəlmiş keçmiş ən zəngin 10 insanı ilə tanış olun.*

**1-Mansa Musa (400 milyard dollar)**

Dünyanın gəlmiş keçmiş ən zəngin insanı Mali imperatoru Mansa Musa 1280-1337-ci illər arasında yaşayıb. Fərdi sərvəti bu günün puluyla 400 milyard dollar ətrafında olduğu bildirilir.

Mansa Musa 1312-ci ildə Böyük Mali imperatorluğunun kralı idi. Onun hökm etdiyi dövrdə Mali, dünyanın ən zəngin qızıl ehtiyatlarına sahib ölkələrindən biri olaraq bilinirdi. Kral Musa iqtidara gəldiyi zaman Avropa mədəniyyətlərinin bir çoxu vətəndaş müharibələri və qıtlıqla üz-üzə qalmışdı.

Musanın krallığı indiki Mavritaniya, Seneqal, Qambiya, Gine, Burkina-Faso, Mali, Niger, Nigeriya və Çad torpaqlarını əhatə edirdi.

Mansa Musanın yalnız karvanının içində 60.000 kişi və əlavə olaraq İran ipəyi geymiş 12.000 kölə vardı. Qızıl məhsullar daşıyan 500 kölənin arxasında atına minirdi. Ayrıca yanında hər biri 135 kq qızıl daşıyan 80 dəvəylə gəzərdi həmişə. Səfərləri zamanı bədxərc idi, pullarını xərcləyər, insanlara qızıl paylayıb, hədiyyə əşyalar ilə mübadilə edərdi.

**2- Con Rokfeller (340 milyard dollar)**

Bu gün belə Rokfeller ailəsi dünyanın ən zənginləri arasındadır. 1839-cu ildə Nyu-Yorkda doğulan və 1937-ci ildə 97 yaşında ölən Con Rokfellerin fərdi sərvəti 340 milyard dollar ətrafındadır.

**3- Andreu Carnegie (310 milyard dollar)**

Andreu Carnegie, 19-cu əsrdə inanılmaz dərəcədə zəngin və güclü bir iş insanı olub. Şotlandiyada kasıb bir ailədə dünyaya gələn Carnegie, ABŞ-a köç etdikdən sonra qurduğu şirkətlər və sərmayələri ilə sərvətini 310 milyard dollara qədər çıxarıb.

**4- Nikolas Alexandroviç (300 milyard dollar)**

"Tarixin ən zəngin əzizi" olaraq adlandırılan Alexandroviçin fərdi sərvəti 300 milyard dolların üzərindədir.

**5- Mir Osman Əli Xan (230 milyard dollar)**

Mir Osman Əli Xan, Hindistanın ingilis müstəmləkəsi olduğu dövrdə ən böyük şahzadə dövlət olan Haydarabad əyalətinin son hökmdarı idi. 1911-1948-ci illər arasında Hindistana birləşdirilənə qədər Haydarabad əyalətinə hökm edib. Fərdi sərvətinin 230 milyard dolların üzərində olduğu iddia edilir.

**6- Jakob Fugger (221 milyard dollar)**

Jakob Fugger, bu siyahıdakı digər adamlara görə sərvəti daha az bilinə bilər, amma 1459-1525-ci illər arasında yaşayan bu bacarıqlı tacirin sərvəti 221 milyard dollar ətrafında olub. Sərvətini tekstil məhsulları, gümüş və qızıl mədənlərindən əldə edib.

**7- Birinci Viliam (209-229 milyard dollar)**

1066-1087-ci illər arasında İngiltərə Kralı olaraq vəzifə yerinə yetirən Birinci Viliamın fərdi sərvətinin bu günün puluyla 200 milyard dolların üzərində olduğu təxmin edilir.

**8- Muammer Kaddafi (200 milyard dollar)**

Liviyanın keçmiş dövlət başçısı, Orta Şərqə təsir edən "Ərəb Baharı" inqilabı zamanı hakimiyyətdən endirilən Kaddafi, yaşadığı dövrdə 200 milyard dollarlıq sərvətiylə adını tarixin ən zənginləri arasına yazdırıb.

**9- Henry Ford (199 milyard dollar)**

Adından da aydın olduğu kimi Fordun qurucusunun fərdi sərvəti haradasa 200 milyard dollar olub.

**10- Cornelius Vanderbilt (185 milyard dollar)**

Amerika tarixinin ən əhəmiyyətli iş adamlarından olan Vanderbilt, 1800-cü illərdə dəmiryolu inşaatı işində özünü təsdiqləmişdi. Sərvətinin təxminən 185 milyard dollar olduğu təxmin edilməkdədir.



Con Rokfeller (340 milyard dollar)





Andreu Carnegie (310 milyard dollar)



Nikolas Alexandroviç (300 milyard dollar)



Mir Osman Əli Xan (230 milyard dollar)



Henry Ford (199 milyard dollar)

**Turan**